# III. Dan yeri söküləndə...

(Əvvəli qəzetin 5 və 29 iyun 2015-ci il tarixli saylarında).

Şimalın bəmbəyaz aylı gecəsi sona çatır, müdhiş ağır və qanlı bir sabah açılırdı. Dan yeri sökülür, şimal şəfəqlərinin əksilə bəzənmiş böyük Neva çayı, sanki bu hadisədən çox qəzəblənmiş kimi axır, bombardımana düşüb suya qərq olmuş insanların meyidlərini yuyub aparır, pıçıldayan dalğalar sanki onların ruhuna ağı deyirdi.

Hürküb aşmış arabaların altında qalıb yaralanmış, bombardıman zamanı qəlpə yarası almış insanları ağacların altında uzadıb ilk tibbi yardım göstərirdilər. Onların arasında ölən və ağır yaralılar çoxluq təşkil edirdi. Heç bir xəsarət almayanları başqa yerdə cəmləşdirmişdilər. Qadınlar müharibəni başlayanları lənətləyib ağı deyir, uşaqlar çığırıb ağlayırdılar. Ağız deyəni qulaq eşitmir, vahiməli meşəni imdad diləyən insanların iniltisi bürüyür, bu səs-küyə ağaclarda yuva qurub yaşayan quşlar hürküb dəstə halında göydə uçuşur, səhərin ala- toranında vurnuxur, civildəşirdi. Zoyaya elə gəlirdi ki, quşlar bu sakitliyi pozan insanlara qarğış edir, onları lənətləyirdi.

Göydə uçuşan quşlar kimi Zoyagil də bu gecə isti ev-eşiklərindən didərgin düşmüş və müqayisədə onlarla heç bir fərq görmürdü.

Əsgərlərin heç kəsin yerindən tərpənməmək əmrinə məhəl qoymayan Zoya insanların arasında vurnuxur, iki böyük qardaşı Miri və Qayanı axtarırdı.

Nəhayət, onları yaralılar olan dəstədə sağ-salamat tapdı. Qardaşları yardım məqsədilə əsgərlərə kömək edirdilər. Zoya onları sağ tapdığına görə Allaha şükür edib hər ikisinin boynunu qucaqladı.

Əsgərlər komandanlıqla ratsiya əlaqəsi yaratdı. Tez bir zamanda haradan isə ekskovator peyda oldu. Ekskovatorla dərin quyu qazıb ölənləri tez həmin quyuya ataraq üstünü torpaqladılar. Yaralıları isə həmin qəsəbədəki xəstəxanaya yola saldılar. Sonra camaata səhər yeməyi payландı. Nə böyüklər, nə də uşaqlar yeməyə əl uzatdı. Hər kəsin iştahı küsmüşdü. Ancaq onların fikrindən eyni sual keçirdi: görəsən daha sonra nə baş verəcək?

Atlar bir az dincini aldıqdan sonra yenidən arabalara yerləşmək əmri verildi. Axşama yaxın arabalar Leninqrad şəhərinə daxil oldu. Gələnlər şəhərin kənarında kalona oxşar bir binada yerləşdirildi. Biz qədim və gözəlliyi ilə insanı valeh edən bu şəhərə qaçqınlar adıyla daxil olduq.

(Ardı var).

Rəciyyə MEYFULLAQIZI.

# «Qəbələ»dən tarixi qələbə



Qəbələ şəhər mərkəzi stadionunda, Avropa Liqasının I təsnifat mərhələsinin cavab oyunları çərçivəsində keçirilən Azərbaycanın "Qəbələ" və Gürcüstanın "Dinamo Tbilisi" komandaları arasında futbol oyunun birinci hissəsi qolsuz başa çatıb.

71-ci dəqiqədə gürcülər azlıqda qalıblar-Laşa Totadze qırmızı vərəqə alıb. 88-ci dəqiqədə gözlədiyimiz qol gəlib–futbolçulardan Asif Məmmədov fərqlənib. Son dəqiqədə isə Aleksey Antonov son nöqtəni qoyub-2:0.

İlk oyun 2:1 hesabı ilə gürcülərin xeyrinə başa çatdığından bu hesab "Qəbələ"ni növbəti mərhələyə yüksəldib.

**Foto İ. Vəlizadənindir.**


## Bütün iş adamlarına, vətəndaşlara!

*"Qəbələ" qəzetinin reklam xidməti sizinlədir*

Siz sərfəli müqavilə qiymətləri ilə hər nömrəsi 2.300 nüsxə tirajla çap olunan və rayonun bütün yaşayış məntəqələrində kütləvi tirajla yayılan, muzeylərə, kitabxanalara, Bakı şəhərində ayrı-ayrı xüsusi idarə və müəssisələrə, abunəçilərə göndərilən qəzetin

**reklam xidmətindən istifadə edə bilərsiniz**

Qəzetin səhifələrində övladlarınızın, yaxınlarınızın, dostlarınızın ad günlərini, toy şənliklərini, qeyri-adi günlərini təbrik etmək sizə böyük şərəf və xoş duyğu gətirə bilər.

Qəzetdə ev alqı-satqısı, dəyişdirilməsi, sənədlərin itməsi və ya tapılması, digər məsələlər barədə elanlar da dərc olunur.

**TİCARƏT MÜƏSSİSƏLƏRİ, ŞİRKƏTLƏR!**

Məhsullarınızın satılması, daşınması, bu və ya digər işlərin görülməsi, habelə katirovka sorğularının dərc olunması barədə reklamlar və elanlarla da qəzet sizin xidmətinizdədir.

**İstədiyiniz vaxt buyurun, gəlin, zəng edin:**

**Ünvanımız:** Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.

**Telefonlar:** 5-19-14, 5-15-56, Mob: 050-328-11-42.



## Oxucuların nəzərinə!

## «Qəbələ» qəzetinə

**2015-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.**

**Qəzet ayda dörd dəfə çıxır.**

**Yarımillik abunə qiyməti 15 manatdır.**

**Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyanın özündə kassaya nəqd ödəmə yolu ilə aparılır.**

**Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.**

Ünvan: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.

Telefonlar: (024)20 5-19-14, (024)20 5-15-56, mob. (050) 328-11-42.


## Bunları bilmək maraqlıdır

— Andorra dünyada yeganə ölkədir ki, orada poçt xidmətləri pulsuzdur.

— İngiltərədə ildə 12 milyon mobil telefon və 2 milyon televizor zibilliyə tullanır.

— İtaliyada Qərbi Avropanın mədəni dəyərlərinin 60 faizi cəmlənib. Hər bir italyan şəhəri açıq muzey kimi xarakterizə olunur.

— Toqoda qadına kompliment deyən kişi mütləq onunla evlənməlidir.

— Fransada bir-birindən 60 metr aralıda iki qüllə ucaldılıb. Onların arasında bir dəfə qışqıranda 12 dəfə əks-səda eşitmək mümkündür.

## ELAN

Qəbələ rayonu Topbağ kənd inzibati ərazi dairəsinə məxsus dairəvi möhür və künc ştampı itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası FHN-nin Şimal-qərb Regional Mərkəzinin kollektivi iş yoldaşları **Sənan** və **Nurlan Şahmurovlara**, əzizləri

**SİYARƏ XANIMIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verirlər

Qəbələ Rayon Təhsil şöbəsinin kollektivi iş yoldaşları **Aslan Şirazova**, əzizi

**PƏRVİZİN**

vaxtsız vəfatı münasibətilə dərin hüznlə başsağlığı verir.


Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi:
N. R. Atakişiyev.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.

Oxucu məktubları geri qaytarılmır.